**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ÜLKƏR ELMAN qızı BAXŞIYEVA**

# MİRZƏ İBRAHİMOV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI MƏSƏLƏLƏRİ

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Himalay Ənvər oğlu Qasımov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Muxtar Kazım oğlu İmanov**
AMEA-nın müxbir üzvü,
filologiya üzrə elmlər doktoru, professor

**Tehran Əlişan oğlu Mustafayev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** **Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə “_____”__________ 2017 – ci ildə saat ____ - da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə)

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “____”___________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

# G İ R İ Ş

**Mövzunun aktuallığı.** Mirzə İbrahimov (1911-1993) müasir Azərbaycan ədəbiyyatının təşəkkül və inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli yazıçı və dramaturqdur. O, keçən əsrin 30-cu illərindən başlayaraq silsilə hekayə, dram ("Madrid", "Məhəbbət", "Kəndçi qızı", "Həyat", "Yaxşı adam", "Közərən ocaqlar"), povest ("Güləbətin", "Xosrov Ruzbeh", "Fırtına quşu") və romanları ilə ("Gələcək gün", "Böyük dayaq", "Pərvanə") Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş, fikrin bədii ifadə imkanlarını xeyli zənginləşdirmişdir. M.İbrahimov bədii yaradıcılıq sahəsində olduğu kimi, elmi fəaliyyətində də böyük uğurlar qazanmış, nəzəriyyəçi alim olaraq ədəbiyyatşünaslığımızı məşğul edən müxtəlif problemlərin araşdırılmasında nailiyyətlər əldə etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatı və ədəbi-nəzəri fikrinin görkəmli nümayəndəsi M.İbrahimovun istər bədii, istərsə də ədəbi-nəzəri yaradıcılığı mühüm hadisə olub, kəmiyyət və keyfiyyət baxımından çoxsaylı və sanballı nümunələrlə təmsil olunur. Bütün ömrü boyu bədii yaradıcılıqla məşğul olan ədib ədəbi-nəzəri yaradıcılıqdan da kənarda qalmamış, Azərbaycan və dünya ədəbiyyatı ilə bağlı özünəməxsusluğu ilə seçilən çoxsaylı tədqiqatlar aparmışdır. Onun ədəbiyyatşünaslıq, ədəbi-tənqidi yaradıcılığının əlamətdarlığı M.İbrahimovun eyni zamanda dərin bədii təfəkkürə malik yazıçı olması ilə bağlı idi. O, tədqiqat obyektinə çevirdiyi bədii mətnləri bir yazıçı kimi dərindən duyur, bu əsərlərin müəlliflərinin psixoloji aləminə enə bilirdi. Çünki özü də yazıçı idi və yaradıcılığın psixologiyasına canlı şəkildə bələd idi. Bu cəhətdən M.İbrahimovun ədəbiyyatşünaslığın istənilən sahəsi (ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid) ilə bağlı yazıları bu gün də öz dəyərini saxladığından müasir filologiyanın tədqiqat obyektinə çevrilə bilir.

Akademik M.İbrahimov 82 illik ömrünün təxminən 60 illik bir dövründə elmi-nəzəri fəaliyyətlə məşğul olmuşdur.Akademik M.İbrahimovun ədəbi-tənqidi fəaliyyəti elə bir yüksək inkişaf mərhələsinə ucalmışdır ki, bu mərhələdə "yazıçı tənqidi" ilə "professional tənqid"in sərhədləri aradan götürülmüş,onun elmi-nəzəri düşüncələri bir növ yazıçı-alim fəaliyyəti müstəvisində özünəməxsus tənqid tipində təzahürünü tapmışdır. C.Məmmədquluzadənin həyat və yaradıcılığına həsr etdiyi "Böyük demokrat" (1939) monoqrafiyası və Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundov, Q.Zakir, M.Ə.Sabir, N.Nərimanov, M.Hüseyn, S.Vurğun, Turgenev, Krılov, Qoqol, Nekrasov, Dostayevski, Şedrin, Qorki və s.kimi Azərbaycan və rus ədəbiyyatı nümayəndələrinin həyat və yaradıcılıqlarına,

o cümlədən klassik və müasir ədəbiyyatımızın bir sıra nəzəri-estetik problemlərinə dair tədqiqatları və s. onun ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərinin möhtəşəmliyini ifadə edir. Yazıçı-alim fəaliyyəti dairəsində akademik M.İbrahimov, M.Rəfili, Mir Cəlal, Mehdi Hüseyn, Elçin Əfəndiyev kimi nümayəndələr arasında yer alırsa, sırf ədəbiyyatşünas alim kimi isə onu M.Arif, Y.Qarayev, B.Nəbiyev, Ə.Mirəhmədov, İ.Həbibbəyli və digər şəxsiyyətlər sırasında saxlamaq mümkündür. Hər iki halda akad. M.İbrahimov ədəbiyyatşünaslıq tariximizə Azərbaycan, rus, Avropa və Şərq xalqları ədəbiyyatının ayrı-ayrı dövrləri, görkəmli ədəbi şəxsiyyətlərinin həyat və yaradıcılıqları, bu yaradıcılıqların mövzu-ideya, dil-üslub, süjet və s. problemləri barədə əhəmiyyətli elmi-nəzəri tədqiqatlar aparmış müəllif kimi daxil olmuşdur.

Akademik M.İbrahimov ədəbiyyatşünaslıq fəaliyyəti ilə böyük ədəbiyyatımızın aktual problemlərini vətəndaş-alim mövqeyindən tədqiq etməklə milli tənqidi-estetikada bir sıra yeni yanaşmaların əsasını qoydu. Avropa renessansı ilə müqayisədə Azərbaycan renessansının əhəmiyyət və təsir dairəsinin çoxluğu, Azərbaycan dilinin dövlət dili səviyyəsində qəbulunun təbliği, Cənubi Azərbaycan ədəbiyyatına münasibətdə vahid Azərbaycan ədəbiyyatı konsepsiyasının tətbiqi və s. məsələlər bu sırada əhəmiyyətli yer alır və mövzunun aktuallığını digər baxımdan şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini akademik M.İbrahimovun Azərbaycan ədəbiyyatı problemləri ilə əlaqədar yazdığı elmi-nəzəri əsərləri təşkil edir.

M.İbrahimovun folklor, klassik və yeni dövr ədəbiyyatı problemləri ilə bağlı elmi-nəzəri, ədəbi-estetik görüşlərinin ədəbiyyatşünaslıq problemləri daxilində öyrənilməsi isə tədqiqat işinin predmetinə aiddir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsəd akademik M.İbrahimovun Azərbaycan ədəbiyyatı problemləri ilə əlaqədar apardığı araşdırmaları milli ədəbiyyatşünaslıq tələbləri daxilində təhlil etmək və müəyyən sistemləşdirmə işi aparmaqdır. Bunun üçün bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

– M.İbrahimovun folklorşünaslıq problemlərinə dair fikirlərini ümumiləşdirib təhlilə cəlb etmək;

– M.İbrahimovun orta əsrlər Azərbaycan ədəbiyyatında realizm problemlərinə dair fikirlərini müqayisəli təhlilə cəlb etmək;

– Azərbaycan renessansı problemləri ilə bağlı fikirlərini təhlil etmək;

– Klassik Azərbaycan ədəbiyyatının ayrı-ayrı nümayəndələrinin təhlilinə həsr edilmiş məqalələri elmi baxımdan dəyərləndirmək;

– M. İbrahimovun elmi baxışlarında klassik ədəbiyyatın janr, mövzu, metod, cərəyan, təriqət və s. ilə bağlı fikirlərini təhlil etmək;

– M.İbrahimovun XIX-XX əsrlər və müasir Azərbaycan ədəbiyyatının problemləri ilə bağlı fikirlərini tədqiq etmək;

– M. İbrahimovun C. Məmmədquluzadəyə həsr etdiyi tədqiqatı elmi baxımdan dəyərləndirmək;

– Cənubi Azərbaycan ədəbiyyatı problemlərinin M.İbrahimov araşdırmalarında tutduğu xüsusi yeri müəyyənləşdirmək;

– M. İbrahimovun Azərbaycan dili ilə bağlı fikirlərini milli-estetik müstəvidə dəyərləndirmək.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat işində tarixi-müqayisəli metodun tələbləri əsas götürülmüşdür. Azərbaycan ədəbiyyatşünaslığının sabit və özünütəsdiq məziyyətləri, ümumi ədəbi-tarixi və estetik qanunauyğunluqlar bu prinsipin əsasını təşkil edir.

**Mövzunun öyrənilmə tarixi.** M.İbrahimov zəngin ədəbi-bədii və elmi irsə sahibdir. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığının diqqət mərkəzində olmuş, bədii irsi ilə bağlı bir sıra tədqiqat işləri yazılmışdır.[1] Akademik Teymur Kərimli “Akademik Mirzə İbrahimov” (2015) adlı monoqrafiyasında Mirzə İbrahimovun Azərbaycan klassik ədəbiyyatı ilə bağlı görüşlərini təhlil etmişdir. Prof. Abbas Hacıyev “M.İbrahimovun yaradıcılıq yolu” (1970) adlı doktorluq dissertasiyası və “Mirzə İbrahimov” (1982) monoqrafiyasında onun bədii yaradıcılığını araşdırmışdır. Prof.Teymur Əhmədovun “Akademik Mirzə İbrahimov” (2015) monoqrafiyasında M.İbrahimovun həyat və yaradıcılığı təhlil olunmuş, onun elmi fəaliyyətinin araşdırılması məqsəd kimi qarşıya

---

[1]Kərimli T. Akademik Mirzə İbrahimov. Bakı: Elm, 2015, 127s ; Hacıyev A.M. İbrahimovun yaradıcılıq yolu.fil. elm. dok. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya/ BDU-nun kitabxanası, Bakı: 1970, 656 s.; Hacıyev A. Mirzə İbrahimov. Bakı:Yazıçı, 1982, 205s; Əhmədov T. Akademik Mirzə İbrahimov. Bakı: Nurlan Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 296 s.; Quliyev E. Azərbaycan Ədəbiyyatında sosialiat realizminin inkişafında Mirzə İbrahimovun rolu. Fil.elm. nam... alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: ADPU-nun kitabxanası, 1988, 168 s.; Quliyev E.M.İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri. Bakı: ADPU, 1997, 98s.; Alışanlı Ş. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi . Bakı: Elm, 2013, 404 s.; Əliyev F. Mirzə İbrahimov və xalq yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 164s.; Solmaz Cəlal qızı.Mirzə İbrahimov və Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı:Elm, 2011,144s.; İbrahimov M.Müasirlərinin xatirələrində. Bakı: Elm, 2008, 560 s.

qoyulmamışdır. Prof.Elman Quliyev "Azərbaycan ədəbiyyatında sosialist realizminin inkişafında M.İbrahimovun rolu" adlı (1988) dissertasiyasında və "Mirzə İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri" (1997) kitabında M.İbrahimovun bədii yaradıcılığını təhlil etmişdir. O, "Mirzə İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri" kitabında M.İbrahimovun ədəbi-estetik görüşlərinə ayrıca yer ayırsa da, M.İbrahimovun Azərbaycan ədəbiyyatı məsələləri ilə bağlı görüşlərini müstəqil şəkildə tədqiq etməmişdir. Filologiya üzrə elmlər doktoru Şirindil Alışanlı "Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi" (2013) adlı kitabında M.İbrahimovun ədəbi-nəzəri görüşlərini təhlilə cəlb etmişdir. Burada Azərbaycan ədəbiyyatı problemlərinin öyrənilməsi kontekstində əsas yerdə M.İbrahimovun C.Məmmədquluzadəyə olan münasibəti dayanır. Filologiya üzrə fəlsəfə doktoru Fazil Əliyev "Mirzə İbrahimov və xalq yaradıcılığı" (1992) dissertasiyasında və bu dissertasiya əsasında 2013-cü ildə çap etdirdiyi eyniadlı monoqrafiyasında M.İbrahimov yaradıcılığının folklor ilə bağlı problemlərini təhlilə cəlb etmişdir. Filologiya üzrə fəlsəfə doktoru Solmaz Cəlal qızının "Mirzə İbrahimov və Cənubi Azərbaycanda azadlıq hərəkatı" (2011) monoqrafiyasında M.İbrahimov yaradıcılığı Cənubi Azərbaycan ədəbiyyatı problemləri kontekstində təhlil olunmuşdur. "Mirzə İbrahimov (müasirlərinin xatirələrində" (2008) adlı 61 məqalədən ibarət xatirələr toplusu kitabında M.İbrahimov yaradıcılığına müxtəlif aspektdən toxunulmuş, bu məqalələrdə onun elmi-nəzəri fəaliyyəti ilə bağlı fikirlər yer almamışdır. O cümlədən keçmiş Sovetlər İttifaqı miqyasında ayrı-ayrı müəlliflər tərəfindən Mirzə İbrahimovla bağlı yazılmış bir sıra məqalələrdə onun bədii yaradıcılığı təhlil olunmuşdur.[1]

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada qoyulan problem Azərbaycan ədəbiyyatşünaslığında müstəqil tədqiqat kimi ilk dəfə öyrənilir. Akademik M. İbrahimovun ədəbiyyatşünaslıq fəaliyyəti daxilində Azərbaycan ədəbiyyatı məsələlərinin mahiyyəti ilk dəfə geniş elmi-nəzəri aspektdə dəyərləndirilir. Akademik M.İbrahimovun orta əsrlər Azərbaycan ədəbiyyatının yaradıcılıq metodu barədə fikirləri, C.Məmmədquluzadənin Azərbaycan ədəbi-ictimai və milli-estetik fikir tarixindəki rolu, Cənubi Azərbaycan ədəbiyyatına bütöv Azərbaycan ədəbiyyatı problemləri

---

[1] Кедрина З. Великая опора// Новый мир, Москва, 1959, №6, с.247-252; Кедрина З. Политический роман. Литературная газета, Москва, 1950, 30 ноября; Чернигин Б. Произведение о борьбе Иранского народа . Радянкого слова, Москва, 1952, 9 марта; Долмотовский Е. Высокая задача . Литературная газета , Москва, 1955, 1 мая

daxilində müdaxilə, müasir Azərbaycan ədəbiyyatı məsələlərinin öyrənilməsi zamanı yazıçı və dil problemlərinə milli mədəniyyət və milli dil kontekstində yanaşma dissertasiyanın elmi yeniliyi üçün xarakterikdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın ayrı-ayrı fəsil və müddəaları milli ədəbiyyatşünaslıq və milli Azərbaycan ədəbiyyatı tarixi konsepsiyasının işlənib hazırlanmasında gərəkli ola bilər. Həmçinin, tədqiqatın Azərbaycan ədəbiyyatı mütəxəssisləri üçün maraq doğuracağı da şübhəsizdir.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya ADPU-nun "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında hazırlanmışdır. Dissertasiyanın əsas müddəaları konfrans materiallarında, elmi jurnallarda dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"** də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işlənmə dərəcəsi müəyyələşdirilir,tədqiqatın elmi yeniliyindən,metod və mənbələrdən, nəzəri və praktik əhəmiyyətindən bəhs edilir, işin aprobasiyası və quruluşu barədə məlumat verilir.

Dissertasiya 3 fəsildən ibarətdir. Birinci fəsil **"M.İbrahimovun folklorşünaslıq görüşləri"**adlanır. Burada Mirzə İbrahimovun folklorşünaslıq görüşlərindən bəhs olunur. Bu fəslin başlanğıcında qeyd olunur ki, ədibin folklor yaradıcılığı ilə bağlı düşüncələri üzərində apardığımız müşahidələr göstərir ki, onun folklora yanaşması öz dövrünün folklor haqqındakı nəzəri-estetik, ədəbi-metodoloji qəliblərinə əsaslanır.

Birinci fəslin **"M. İbrahimov və qəhrəmanlıq dastanları problemi"**adlı birinci yarımfəslində qeyd edilir ki,türk mədəniyyətinin tərkibi olan dastanlar həm tarixi əks etdirmək, həm də bu millətin tarixi kökü, adət-ənənəsi, psixologiyası, düşüncə tərzi və s. barədə fikir söyləmək baxımından əhəmiyyətli yer tutur. Azərbaycanın xalq yazıçısı, akademik Mirzə İbrahimov Azərbaycan xalqının qəhrəmanlıq dastanlarından danışarkən bilavasitə tarixi proseslər daxilində türkün keçdiyi zəfər tarixini önə çəkir, təhlil prosesində bu xalqın qəhrəmanları timsalında milli-tarixi şəxsiyyət amilinə önəm verir. Akademik Mirzə İbrahimov "Kitabi-Dədə Qorqud", "Koroğlu" və s. dastan nümunələrini təhlil edərkən bu dastanlardakı xalq və qəhrəman kontekstini daha çox qabardır.1941-ci ildə yazılmış "Azərbaycan qəhrəmanlıq dastanları" adlı məqaləsindəədib elə ilk abzasdan tarixə müraciət etmişdir. M.İbrahimovun sözü gedən məqaləsi başdan-başa milli

ruhdadır. Bu yazıda müəllifin milli əqidəsindən doğan özəl bir ruh vardır. Bu ruh M.İbrahimovun milli dəyərlər dünyası ilə bilavasitə bağlıdır və özünə münasibətdə müəyyən diqqət tələb edir.

M.İbrahimov qəhrəmanlıq dastanlarına üz tutmaqla milli ruhu, mübarizə ruhunu oyatmağa çalışırdı. Koroğlu, Qaçaq Nəbi, Səttar xan kimi real və epik obrazlar bu ruhun coşqusunu ifadə edir. İnsanın daxili mübarizə potensialı bu obrazlar vasitəsilə hərəkətə gəlir.

Akademik M.İbrahimov"Dədə Qorqud" dastanı ilə bağlı yazdığı təhlillərində Qaraca çobanın simasında sadə bir oğuz insanının qəlbindəki yurd sevgisi, vətəndən ötrü ölümə hazırlığı və s. cəhətlərə xüsusi yer ayırır. Akademik Mirzə İbrahimov bu epizodla bağlı təhlillərində haqlı olaraq vurğunu əsl xalq qəhrəmanlığının tipik xüsusiyyətləri üzərində saxlayır. O, oğuz (türk) igidinin şəhidliyi bəylikdən üstün tutması faktını xüsusi qabardır.

M.İbrahimov dastan qəhrəmanlarımızdan söz açarkən onların göstərdikləri qələbələrin xarakterinə də aydınlıq gətirir. M.İbrahimov yüngül qələbələri türk dastan qəhrəmanları üçün səciyyəvi hesab etmir. Bu cür qələbələri qəhrəmanlarımız üçün nəinki xarakterik saymır, həm də onu qəhrəmanlarımıza təhqir bilir. Bu səbəbdən "Dədə Qorqud" qəhrəmanlarının igidliyi, mübarizəsi düşmənlə savaşda xarüqələri ilə seçilir və türk qəhrəmanlığının tipik xüsusiyyətlərini özündə əks etdirir.

Düşməndən qorxmayan, namusu uca tutan, onu özü üçün şərəf bilən türk igidinin qüdrətli obrazı bir daha gözlərimiz qarşısında ucalır. Bildiyimiz kimi "Dədə Qorqud" dastanında Burla xatunun və oğlu Uruzun qəhrəmanlıq şücaəti buna bariz nümunədir. Təhlil prosesində M.İbrahimov bu halı yuxarıda qeyd olunduğu kimi namusu hər şeydən uca tutmağın nəticəsi hesab edir. Maraqlı odur ki, M.İbrahimov qəhrəmanlığı Azərbaycan xalqı üçün ənənə şəklində dəyərləndirir. Tarix boyu xalqımızın düşmənlə, vətənimizə təcavüz edənlərlə amansız mübarizəsini tarixi ənənələrlə bağlayır və ulu babalarımızın qəhrəmanlıq ruhunun sonrakı nəsillərinin həyatındakı rolunu yüksək qiymətləndirir.

Akademik M.İbrahimov "Dədə Qorqud" dastanlarında özünəməxsus yer alan adqoyma məsələlərinə də münasibət bildirir: "Dədə Qorqud" dastanlarındakı qəhrəmanlar düşmən başı kəsməyən, düşmən qanı tökməyənlərə ad qoymayırlar. Uşaqlar həddi-buluğa çatana qədər adsız yaşayır və hərgah bu zaman qəhrəmanlıq göstərməsələr dünyadan adsız da gedirlər"[1].

---

[1] İbrahimov M. Əsərləri. 10 cilddə, IX c., Bakı: Yazıçı, 1982, s.208

M.İbrahimov Azərbaycan dastanlarında inikas olunmuş qəhrəmanlıq ruhunu heç də mücərrəd, qeyri-real, uydurma hesab etmirdi. Onun dastana yanaşmasının əsas xüsusiyyətlərindən biri budur ki, ədib şifahi xalq yaradıcılığı hesab olunan dastanların qəhrəmanlıq ruhunu heç də bədii hadisə yox, xalq mənəviyyatının həqiqi, gerçək ifadəsi sayırdı. Məhz bu cəhət ona tarixi qəhrəmanları epik qəhrəman obrazları ilə eyni sıraya qoymağa imkan verdiyi kimi, bu qəhrəmanlıq ruhunu müasirlərinin mənəviyyatında görməyə də imkan verir.

M.İbrahimov qəhrəmanlıq dastanlarına bilavasitə Azərbaycan xalqının qəhrəmanlıq tarixinin inikası kimibaxırdı. Ədibin qəlbinin dərinliklərində gizlənmiş əqidəsinə görə, müxtəlif siyasi sifarişlər yerinə yetirən tarixçilər öz əsərlərində gerçək tarixi təhrif edə bilsələr də, əsl milli tarix qəhrəmanlıq dastanlarının özündə qorunaraq qalır.Müəllifin yaradıcılığında Koroğlu, Salur Qazan,Uruz kimi epik qəhrəman obrazları ilə Babək, Səttar xan, Qaçaq Nəbi və s. kimi tarixi qəhrəmanlar arasında fərq qoyulmamasının səbəbi budur. M.İbrahimov dastanlarda yaşayan qəhrəmanlıq ruhu ilə xalqın gerçək mənəviyyatı arasında bərabərlik işarəsi qoyur, dastanları, folkloru xalq mənəviyyatının  güzgüsü hesab edirdi.

Birinci fəslin **"M. İbrahimov aşıq sənəti və yaradıcılığı haqqında"**adlı ikinci yarımfəslində isə daha çox ədibin 1960-cı ildə çap olunmuş "Tükənməz xəzinə" adlı məqaləsinin və1965-ci ildə nəşr olunmuş "Aşıq poeziyasında realizm" adlı  irihəcmli əsərinin təhlili üzərində dayanılır. İkinci yarımfəslin**"Aşıq sənətinə baxış**"adlı birinci hissəsində "aşıq" sənətinin bir neçə səciyyəvi cəhəti izah edilir. Akademik M.İbrahimovun aşıq sənətinə baxışında bir neçə xüsusiyyət diqqəti cəlb edir. Burada onun "Tükənməz xəzinə" məqaləsinə daha çox istinad edilir.

M. İbrahimov aşıq sənətinin böyüklüyü və gücünü onun xalqın mənəviyyatına yaxın olmasında görmüşdür: "Aşıq sənəti böyük sənətdir, xalqa çox yaxın və doğmadır. Xalqın həyatının, məişətinin müxtəlif cəhətləri, adət-ənənələri, zövqü və təsəvvürləri bu sənətdə əks olunur. Aşıq dastanları yazılışı etibarilə, hadisələrin inkişafı, təsvir vasitələri və insan surətlərinin canlandırılması etibarı ilə xalq dastanlarına və nağıllarına çox yaxındır. Bütün xalq yaradıcılığı kimi aşıq sənəti də əsasən realist sənətdir"[1].M.İbrahimova görə:

– Aşıq sənətinin bütün gücü və əzəməti bu sənətin xalqın mənəviyyat dünyası ilə birbaşa bağlılığı ilə şərtlənir;

---

[1]İbrahimov M. Əsərləri. 10 cilddə, IX c., Bakı: Yazıçı, 1982 , s .388

– Aşıq sənəti xalqın bütün milli kimliyini, etnoqrafik özünəməxsusluğunu əks etdirməklə xalqın varlığının sənət aynasına çevrilir;

– Aşıq yaradıcılığı bütün janr strukturu etibarilə xalq yaradıcılığının janr spesifikasını əks etdirir;

– Aşıq yaradıcılığı gerçəkliyi ideallaşdırmanın ən yüksək səviyyəsində belə xalqın həyatından ayrı düşmür. M.İbrahimov bunu realizm adlandırır.

– Aşıq yaradıcılığı dil estetikası baxımından bütövlükdə xalq dili əsasında formalaşır;

– Aşıq söz və musiqi yaradıcılığı vəhdətdədir və bu vəhdət özünün bədii-estetik gücünü xalqın poetik ruhundan alır.

M.İbrahimovun "Tükənməz xəzinə" məqaləsində diqqəti cəlb edən başqa bir məqam aşıqların bir sənətkar kimi təsnifatı məsələsidir.

M.İbrahimovun aşıq təsnifatına nəzər saldıqda onun aşıqları üç qrupaböldüyünü görürük:

1. Kamil aşıqlar: bunlar həm söz qoşur, həm musiqi (havacat) yaradır, həm də ifa edirlər;
2. Söz qoşan, şair-aşıqlar, başqa sözlə, el şairləri;
3. İfaçı aşıqlar

İkinci yarımfəslin "**M.İbrahimovun ədəbi-nəzəri görüşlərində aşıq yaradıcılığı məsələləri**" adlı ikinci hissəsində isə M.İbrahimovun aşıq sənəti və yaradıcılığı ilə bağlı ən fundamental əsəri "Aşıq yaradıcılığında realizm" dən bəhs olunur.M.İbrahimov aşıq poeziyasını yaradıcılıq metodu və üslub cəhətdən az öyrənilmiş sənət hesab edərək göstərir ki, "bu sahədə olan boşluğu doldurmaq və aşıq poeziyasının realist yaradıcılıq xüsusiyyətlərini meydana çıxarmaq, inkişafına təkan vermək üçün onun haqqında çoxdan yaranmış bəzi birtərəfli təsəvvürlərdən uzaqlaşmaq lazımdır. Bu cür təsəvvürlərə görə, aşıq poeziyası böyük məsələlər qaldıra bilməyən və buna görə də böyük ictimai əhəmiyyəti olmayan sırf aşiqanə poeziyadır. Əlbəttə, aşıq şeirində insanın lirik məhəbbət duyğuları, eşqin, vüsalın, hicranın ləzzəti, sevinci, iztirabları geniş şəkildə tərənnüm edilmişdir. Bunu inkar etmək olmaz və lazım da deyildir"[1].M.İbrahimov təsdiq edir ki, aşığın gerçəkliyə münasibəti bütün hallarda "aşıqsayağı"dır.

M.İbrahimov realizm məsələsini aşıq yaradıcılığı üzərində "nümayiş etdirməyi" qarşısına məqsəd qoymuşdur və realizmi məhz bu nöqtədən başlamağı vacib sayırdı. Bizcə, burada əsas yerdə M. İbrahimovun milli

[1]İbrahimov M.Əsərləri. 10 cilddə, IX c., Bakı:Yazıçı,1982, s.452

əqidəyə bağlılığı dayanır. Məqsəd Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin çoxəsrlik daşıyıcısı olan aşıq sənəti və yaradıcılığını ölməyə qoymamaq, yaşatmaq və onun simasında milliliyimizi yaşatmaq idi. Onun “Aşıq poeziyasında realizm” adlı əsəri iki baxımdan diqqəti cəlb edir:

1. Aşıq yaradıcılığında realizm ünsürlərini sistemləşdirib, aşığa yaşamaq haqqını tanıtmaq.

2. Aşıq yaradıcılığının milli mahiyyətini təbliğ etmək.

Qeyd edək ki, ədibin bu əsərində aşıq yaradıcılığının, folklorun və ümumilikdə yazılı ədəbiyyatın bir çox aktual məsələlərinə toxunulmuşdur. Bunlardan biri aşıq yaradıcılığının folklorla ədəbiyyat arasındakı yeridir. M.İbrahimov yazır ki, aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasındabir keçid, möhkəm bir körpü olmuşdur. O, bir tərəfdən xalq yaradıcılığına bağlanmış, o biri tərəfdən yazılı ədəbiyyata.

Xalq poeziyasının inkişaf, təkamül tarixini diqqətlə izləyən M.İbrahimov aşıq şeirinin mənşəyini bayatı, xalq məsəlləri kimi janrlarla əlaqələndirmişdir. Əvvəlcədən qeyd etmək istərdik ki, onun bu sahədəki fikirləri bir çox cəhətdən zamanı qabaqlayan fikirlərdir və bu gün də öz aktuallığını saxlayır. M.İbrahimovun bu fikrinin məna, məzmun aləminə enib, onu təhlil etdikdə aşağıdakı elmi-nəzəri qənaətlər meydana çıxır. Beləliklə, M.İbrahimova görə:

– Aşıq poeziyasının rüşeymi poetik baxımdan bayatılarla bağlıdır;

– Aşıq poeziyasının köklərində həm də xalq məsəlləri – deyimlər durur.

– Aşıq poeziyasının bir qaynağı da xalq mərasimləridir;

– Aşıq poeziyası eyni zamanda xalqın arasıkəsilməz bədii yaradıcılıq təcrübəsindən qaynaqlanır. Bütün bu fikirlər onu göstərir ki, M.İbrahimovun aşıq yaradıcılığı və sənəti ilə bağlı görüşləri mühüm elmi əhəmiyyət daşıyır.

Birinci fəslin **“M.İbrahimov və folklor dili”** adlı üçüncü yarımfəslində göstərilirki, bütün mənəviyyatı ilə Azərbaycan varlığına bağlı olan M.İbrahimovun folklorşünaslıq görüşlərinin mühüm tərəflərindən biri dil ilə bağlıdır. Onun elmi yaradıcılığında dil məsələsi ayrıca bir mövzudur. M.İbrahimov sovet dönəminin ideoloji basqıları altında Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı bütün imkanlardan istifadə etməyə çalışmışdır. Bu cəhətdən müəllifin folklor dili ilə bağlı görüşləri diqqəti cəlb edir. O, “Gəlin gözəl danışaq” adlı məqaləsində dili milli mədəniyyətin əlahiddə dərəcədə qiymətli hadisəsi hesab edərək göstərir ki, dil bəşər tarixinin, insan dühasının ecazkar və hikmətli kəşflərindəndir.

M.İbrahimov dili milli varlığın əsası hesab edir: dil yoxdursa – millət də yoxdur. Bir xalqın, millətin varlığı onun dili ilə müəyyənləşir. Çünki müəllifə görə, "dil insan ağlının qüdrətli silahıdır, insan həyatının böyük neməti və tükənməz mədəniyyət xəzinəsidir"[1].Ümumiyyətlə, M.İbrahimovun Azərbaycan dili ilə bağlı yazıları məzmun və əhatədairəsi etibarilə zəngindir. Lakin biz tədqiqatın predmetindən yayınmayaraq, müəllifin folklor dili ilə bağlı görüşlərinə diqqət edəcəyik.

M.İbrahimova görə ana dili hər bir xalqın milli varlığının göstəricisidir. Bir xalqın varlığını onun vətəni, özünəməxsus milli adət-ənənələri, o cümlədən milli əqidəsi şərtləndirir.

M.İbrahimov dil yaddaşını milli-etnik tarixin açarı hesab edir. Müəllifə görə, milli-etnik tarixin bu gün bizə qaranlıq görünən səhifələrinin üzərinə dil yaddaşı işıq saçır. Ədib bu baxımdan "Dədə Qorqud" dastanlarını əlahiddə qaynaq hesab edir: "Lakin hazırda keçmiş Azərbaycandilini öyrənmək üçün əldə olan ən qədim və ən böyük vasitə "Dədə Qorqud" dastanlarıdır. "Dədə Qorqud" lüğət və sintaksis cəhətdən XI-XIII əsrlərdəki Azərbaycan dilinin bütün xüsusiyyətlərini özündə əks etdirir"[2].

M.İbrahimov Nizami dövründə "Dədə Qorqud" abidəsinin mövcudluğunu təsdiqləməklə, əslində, Azərbaycan türkcəsinin həmin dövrdəki varlığını ortaya qoyurdu. Bu, həmin dövr üçün mütərəqqi elmi addım idi. Çünki həmin dövrün rəsmi tarix elminə görə, Azərbaycan orta əsrlərdə türkləşdirilmiş ölkə idi. Bu cəhətdən, M.İbrahimov "Dədə Qorqud"dan qədim dövr dilimizin abidəsi kimi danışmaqla ən azı iki məqsəd güdürdü:

1. Göstərilən dövrdə fars dilinin rəsmi ədəbi dil olmasına baxmayaraq, Azərbaycan türkcəsinin ümumxalq dili olmasını təsdiq etmək;

2. "Dədə Qorqud" dastanını həmin dövrün Azərbaycan türkcəsində yaranan ədəbiyyatın faktı kimi təsdiq etmək.

M.İbrahimov üçün folklor saf, büllur dilin qaynağı idi. O, məsələn, bu səbəbdən Vaqif şeirlərinin xüsusiyyətlərindən danışarkən onun dilinin xalq dilinin poetik imkanlarını parlaq şəkildə ifadə etməsini yüksək qiymətləndirmişdir. Ədib yazır ki, Vaqif şeirlərinin novatorluğu, Azərbaycan ədəbiyyatına göstərdiyi böyük xidmət onların sadə, təmiz ifadəli, bədii dildə yazılmasıdır. Vaqif Azərbaycan xalq dilinin daxili imkanlarından özünə qədərki bütün şairlərdən daha geniş bir vüsətlə istifadə etmişdir.

**"Mirzə İbrahimov və klassik Azərbaycan ədəbiyyatı"** adlı ikinci fəslin " **Mirzə İbrahimovun nəzəri-estetik görüşlərində metod və**

---

[1] İbrahimov M.Əsərləri. 10 cilddə, X c., Bakı: Yazıçı, 1983, s.34

[2] Yenə orada , s.37

**təriqət məsələləri"adlı** birinci yarımfəslində klassik ədəbiyyatımızın nəzəri məsələlərindən bəhs olunur.M.İbrahimov orta əsrlər Azərbaycan ədəbiyyatı problemlərindən danışarkən bir neçə cəhəti ön planda saxlayırdı. O, orta əsrlər ədəbiyyatını həm ədəbiyyat tarixçiliyi, həm də nəzəri baxımdan təhlilə cəlb edir, orta əsrlər ədəbiyyatımız üçün vacib sayılan məsələrə aydınlıq gətirmək istəyirdi. Akademik M.İbrahimovun 1965-ci ildə yazdığı "Orta əsrlər Azərbaycan ədəbiyyatında realizm probleminə dair", 1979-cu ildə qələmə aldığı "Renessans. Azərbaycan renessansı və onun realizmi" adlı məqalələrində o, cümlədən Nəsimi, Füzuli, Vaqif və digər sənətkarlar haqqındakı tədqiqlərində problemə həm ədəbiyyat tarixçiliyi, həm də nəzəri baxımdan yanaşıldığının şahidi oluruq.

M.İbrahimov orta əsrlər Azərbaycan ədəbiyyatının metodu ilə bağlı fikirlərini bir qədər fərqli şəkildə təqdim edir. Bildiyimiz kimi, prof.Yaşar Qarayev başda olmaqla bir qrup ədəbiyyatşünas Azərbaycan ədəbiyyatında realizmi bir metod olaraq XVIII–XIX əsrlərlə bağlayırlar. Realizmi bir metod olaraq "iki əsrin keçidi" xarakterində təqdim edən və ümumiyyətlə, "realizmin əsas olaraq XIX əsrin hadisəsi kimi meydana çıxdığını"[1] iddia edən prof. Yaşar Qarayev onun yaranması, estetik prinsipləri barədə kifayət qədər mülahizələr irəli sürür və bu mülahizələr əsasında realizmin bədii yaradıcılıq metodu olaraq formalaşmasını yeni dövrə aid edir. M.İbrahimov isə onlardan fərqli olaraq realizmin tarixini orta əsrlər ədəbiyyatı ilə bağlayır. M.İbrahimov realizm tarixi ilə bağlı fərqli rəy və mülahizələrə münasibət bildirərkən məsələlərə ilk növbədə yazıçı və sənətkar yanaşması və ictimai-siyasi proseslər fonunda aydınlıq gətirməyə çalışır. Aşıq poeziyasından başlayaraq Nizamidə, Xaqanidə, Nəsimidə, Füzulidə, Vaqifdə olan realist təsvir, realist ünsür və elementləri bədii təfəkkürün ən yüksək təzahür forması şəklində dəyərləndirir. O, problemə belə yanaşır ki, O.Balzak, L.Tolstoy və M.F.Axundov realizmi heç vaxt birdən-birə yaranmayıb. Realizm böyük yol keçib və Balzak, Tolstoy və M.F.Axundov mərhələsinə gəlib çatıb. Ona görə də Şərq xalqları ədəbiyyatının yaradıcılıq metodu kimi realizmin daha əvvəlki dövrlərdə yarandığını təsdiqləyən M.İbrahimov hər hansı "izm"lərin yaranmasında ilkin element və ünsürlərin mövcudluğunu əsas kimi götürməkdə səhvə yol vermirdi. Bu səbəbdən M.İbrahimov realizmi orta əsrlər Azərbaycan ədəbiyyatı üçün yaradıcılıq metodu hesab edir, bu dövr ədəbiyyatının kamil yaradıcıları olan Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif sənətində realizmin varlığını təsdiqləyirdi. Lakin M.İbrahimovun bu görüşlərində müəyyən ziddiyyətlər

---

[1]Qarayev Y. Realizm:sənət və həqiqət. Bakı: Elm, 1980, s.67

hökm sürür, bir metod kimi realizmin "izm" tələblərini tam ödəmirdi. "Nizami və Füzuli söz yox ki, surət yaradarkən qəhrəmanlıq və gözəllik prinsiplərinə etinasız yanaşmamışlar. Lakin onların bir sıra qəhrəmanları xalqın bu və ya digər zümrəsini təmsil edən real surətlərdir"[1].

M.İbrahimov Azərbaycan intibahını təcrid olunmuş şəkildə qəbul etmir. Onu Şərq və müsəlman intibahının tərkib hissəsi kimi götürür. M.İbrahimov həmçinin intibah anlayışının özünə də səciyyəvi xüsusiyyətlər kontekstində yanaşır. Onu yalnız Avropa mədəniyyəti üçün xarakterik saymağı düzgün hesab etmir. O, Azərbaycan renessansının tarixinin Avropaya nisbətən daha əvvəllərə gedib çatdığını və "Azərbaycan tarixində XI-XIII əsrlər Renessans dövrü hesab edildiyini" [2] məhz Azərbaycanda iqtisadiyyatın, mədəniyyətin, incəsənətin, elmin, ictimai-fəlsəfi fikrin və s. inkişafına əsaslanmaqla sübut etməyə çalışırdı. M.İbrahimov Azərbaycan intibahı xüsusiyyətlərindən danışarkən varlıq, kainat, insan, idrak problemlərinə daha çox önəm verir. Bu mənada N.Gəncəvini Şərq intibahının zirvəsi kimi səciyyələndirir. Xaqani, Marağalı Əvhədi, Nəsimi, Füzuli yaradıcılığını Şərq renessansının parlaq səhifəsi hesab edir. Eyni zamanda onların fikirlərində Qərblə səsləşməni də xüsusi qeyd edir. Məsələn, "İsgəndərnamə" əsərində alimlərin mükaliməsini Platon, Ksenofont, Afinski fəlsəfi fikirlərinin davamı kimi qiymətləndirir. Burada İtaliya renessansı ilə Azərbaycan renessansı arasında oxşarlığın olduğunu diqqətə çatdırır.

M.İbrahimov orta əsrlər Azərbaycan ədəbiyyatının metodu kimi realizmin xüsusiyyətlərindən danışarkən bu dövrdə mövcud olan təriqət ədəbiyyatı problemlərindən də söhbət açır. Marağalı Əvhədi (1274-1338), Nəsimi (1369-1417), Füzuli (1494-1556) kimi böyük sənətkarların yaradıcılıqlarını təhlil edərkən hürufilik, sufizm və s. təriqət cərəyanları barədə mülahizələr irəli sürür.Lakin M.İbrahimovun yaşadığı və fəaliyyət göstərdiyi dövr siyasi-ideoloji baxımdan elə bir dövr idi ki, burada sufizm və hürufiliyin əsl mahiyyəti, məxsusi olaraq dini-fəlsəfi xüsusiyyətləri barədə obyektiv fikir söyləmək imkan xaricində idi. Ona görə də,M.İbrahimovun M.Əvhədi, İ.Nəsimi və M.Füzulinin təriqət görüşləri ilə bağlı təhlillərində rast gəldiyimiz sosioloji yanaşmalara müəyyən mənada haqq qazandırmaq olar. Amma M.İbrahimovun təriqət ədəbiyyatına baxışlarında bu cür yanaşmalar nə qədər yer alsa da, ümumi anlamda sufizmin və hürufiliyin əsl mahiyyəti üzə çıxır, M.Əvhədiyə, İ.Nəsimiyə və

[1] İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, s.18
[2] Ramiz Mehdiyev . Fəlsəfə. Bakı: Şərq-Qərb, 2010, s.86

M.Füzuliyə məxsus təsəvvüf görüşləri özünə yer tapır. M.İbrahimovun M.Əvhədinin “Cami-Cəm” əsərini forma, mövzu və ideya baxımından təhlil edərkən onun M. Əvhədinin sufi görüşlərinə münasibəti bir neçə baxımdan əhəmiyyət kəsb edir. Əvvəla, milli-mənəvi, dini-fəlsəfi dəyərlər üzərində sovet ideoloji qadağalarına baxmayaraq, M.İbrahimovun “Cami-Cəm” əsərində mövcud təsəvvüf görüşlərini təhlilə cəlb etməsi həm əsərindəki bədii mahiyyətin düzgün izahını, həm də orta əsrlər bədii-fəlsəfi, dini-ədəbi düşüncəmizin nüvəsində oturan təriqət dəyərlərinin üzə çıxmasını təmin edir. Digər baxımdan isə bu yanaşması ilə M.İbrahimov orta əsrlər Azərbaycan ədəbiyyatında təriqətsiz mərhələtəsəvvür olunmadığı qənaətini ortaya qoyurdu. M.İbrahimovun M.Əvhədiyə həsr etdiyi “Niyəsiz, necəsiz bir yazısan sən” adlı məqaləsi 1975-ci ildə meydana gəlmişdi. Bu vaxta qədər ədəbiyyatşünaslığımızda H.Araslı, Q.Beqdeli, M.Quluzadə, A.Rüstəmova və s. alimlərimiz sənətkarın həyat və yaradıcılığı, o cümlədən “Cami-cəm” poeması barədə müəyyən fikirlər söyləmişdilər. Lakin onlar M.Əhvədi yaradıcılığındakı mistik meyllərə, sufi dünyagörüşünə toxunmamışlar,üstündən sükutla keçmişlər. Bu da Sovet ideologiyasının dinə qarşı qoyduğu kəskin qadağadan irəli gəlirdi.İlk dəfə M.İbrahimov M.Əvhədinin poemasındakı təsəvvüf qatına daha çox diqqət yetirmiş, əsərdəki əxlaqi-didaktik baxışlarla yanaşı sufizm ideyalarını da xeyli təfsilatı ilə analizdən keçirmişdir.

M.İbrahimov 1973-cü ildə yazdığı “Odlar yurdunun Prometeyi” və “Söz mülkünün sultanı” adlı iki tədqiqat məqaləsində Nəsiminin həyatı, şəxsiyyəti, ictimai-fəlsəfi görüşləri, yaradıcılığı və s. barədə geniş təhlillər aparmışdır.Nəsimi orta əsrlər Azərbaycan ədəbiyyatının bütöv bir şəxsiyyəti kimi təqdim olunur və yeri gəldikcə onun yaradıcılığının xarakteristikası Şərq və Qərb ədəbi dəyərləri kontekstində açıqlanır. Hər iki məqalədə Nəsimi irsi həm fərdi yaradıcılıq nümunəsi kimi, həm də Qərb və Şərq ədəbi dəyərləri ilə qarşılıqlı əlaqədə təhlil olunur. Nəsiminin formalaşdığı tarixi şərait, ədəbi-bədii mühit, Nəsimi poeziyasının məzmunu, dil, ifadə gözəllikləri, Nəsimi poeziyasında insan problemi, kamilləşmə məqamı, hürufilik, onun mahiyyəti və s. cəhətlər araşdırılır.

Məlum olduğu kimi, sovet dönəmindəki araşdırmaların çoxunda Nəsimi panteist şair kimi qələmə verilir, onun yaradıcılığında daha çox dünyəvi məhəbbət axtarılırdı. H.Araslı, M.Quluzadə, C.Qəhrəmanov, Ə.Səfərli, X.Yusifli və s. ədəbiyyat tarixçiləri sənətkarı panteist şair kimi təqdim etmişlər. M.İbrahimov da həmin alimlərin cərgəsindədir. Əlbəttə, bu yanlışlığın mərkəzində sovet dönəmində elmdə mövcud olan Avropasentrizm nəzəriyyəsinin təsiri dayanırdı.Haqqında söhbət açdığımız

məqalələrdə etiraz doğuran fikirlərdən biri də tədqiqatçının hürufizmi "feodal hakimiyyətinə və Teymur işğallarına qarşı xalq etiraz və narazılığının, yəni ictimai oppozisiyanın ifadəsi" [1] hesab etməsidir. Çünki hürufilik, ümumiyyətlə, cəmiyyətdəki bütün cəhaləti aradan qaldırmaq, daha doğrusu, cahil insanı kamil bəşər övladına çevirmək missiyasını izləyirdi. M.İbrahimovun qənaətləri içərisində belə bir fikri də məqbul saymaq doğru görünmür: "Bəzi məsələlərin şərhində Nəimi materializmə yaxınlaşır" [2]. Bu tezisdə Marksist-Leninçi ideoloji şüarın cizgisi aydın görünür. İkinci fəslin **"Klassik ədəbiyyata mövzu, ideya və forma xüsusiyyətləri kontekstində baxış"** adlı ikinci yarımfəslində isə klassik ədəbiyyat problemlərinin araşdırılması M.İbrahimovun elmi fəaliyyətində iki baxımdan diqqəti cəlb edir. Onun nəzəri görüşlərində klassik ədəbiyyat sırf metod, cərəyan, təriqət və s. nəzəri problemlər daxilində özünə yer tapmaqla yanaşı, bu ədəbiyyatın ayrı-ayrı aparıcı yaradıcı şəxsiyyətlərinin həyat və yaradıcılıqlarının öyrənilməsi də daim diqqət mərkəzində saxlanılmışdır. O, klassik ədəbiyyata həsr etdiyi bir sıra məqalələrində Xaqani yaradıcılığına diqqət ayırsa da, 1980-ci ildə yazmış olduğu "Xaqaninin həyatı və estetik idealı" və 1982-ci ildə qələmə aldığı "Nizami və Xaqani yaradıcılığının tədqiqinin bəzi məsələləri" adlı araşdırmalarında konkret olaraq Xaqaninin həyat və yaradıcılığı üçün xarakterik olan bir sıra məsələləri təhlil etmiş, bəzi mübahisəli məqamlara aydınlıq gətirmişdir.

Tədqiqatçı-alim haqlı olaraq Xaqanini məddah şair deyil, "şərq poetik təfəkküründə tamamilə yeni mərhələ olan novator ruhlu" və "dərin fəlsəfi mahiyyəti" ilə seçilən poeziyanın yaradıcısı hesab edir. M.İbrahimov Xaqani yaradıcılığını dəyərləndirərkən onun sənətinin milli xüsusiyyətlərini də diqqətdən kənarda saxlamamışdır. Akademik M.İbrahimov Xaqaninin bütün irsinin fars dilində yazılmasına baxmayaraq, şairin düşüncə və idrak sistemində özünü mühafizə edən milliliyin mövcudluğundan söz açır. Onun sənətindəki realist boyaların əlvanlığını, xalq təfəkkürü və xalq ədəbiyyatından gələn ifadə çeşidliyini və s. bu sənətin aparıcı tərəfi kimi şərh edir.

Xüsusilə Ə.X.Dəhləvi və Ə.Cami kimi sənət korifeylərinin Xaqanidən təsirlənməsi fikri daha əhəmiyyətli görünür. Xaqani ilə Nizami arasında olan mənəvi-estetik bağlılıq faktının təsdiqi M.İbrahimov tədqiqlərində müəyyən yer tuta bilir. Maraqlıdır ki, M.İbrahimov Xaqani ilə Nizami arasında bədii-estetik əlaqədən danışarkən bu təsir və əlaqəni

---

[1] İbrahimov M. Niyəsiz ,necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, s.142
[2] Yenə orada, s .145

məhdud bir zamanla bağlamır. Nizamidən Sabirə qədərki mərhələdə Xaqani təsirinin mövcudluğunu təsdiqləyən alim, bu təsirin əhəmiyyətini hər hansı konkret bir sənətkarla bağlamır. Onu Azərbaycan bədii təfəkkürünün, Azərbaycan bədii zövqünün inkişafına töhfə kimi dəyərləndirir.

N.Gəncəvinin sənəti M. İbrahimovun elmi araşdırmalarında bir neçə baxımdan təhlilə cəlb olunmuşdur. "Şeirimizin şərəf və iftixarı", "Leyli və Məcnun", "Xosrov və Şirin" və s. tədqiqlərində N.Gəncəvinin yaradıcılığını birbaşa hədəf seçmiş, araşdırmalarını konkret problem üzərində davam etdirmişdir. M.İbrahimov N.Gəncəvini haqlı olaraq bəşər söz sənəti tarixinin ölməz və əzəmətli nümayəndəsi hesab edir. M.İbrahimov N.Gəncəviyə təkcə Şərq konteksində yanaşmır. Onu həm də Qərb oxucusu üçün əhəmiyyətli sənətkar hesab edir. Ümumən dünya ədəbiyyatının inkişafındakı rolunu Homerdən, Dantedən, Hötedən, Şekspirdən və s. az hesab etmir. Nizami Gəncəvi poemalarını yazıldığı xronoloji ardıcıllıqla təhlil edən alim hər poemanın ideya-məzmun xüsusiyyətləri üzərində daha çox dayanır. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" poemalarının təhlili zamanı bu əsərlərin əsl ideya-məzmunu, mahiyyəti üzərində dayanılsa da, yeri gəldikcə məsələlərə ictimai-siyasi müstəvidə yanaşılmışdır

M.İbrahimov ötən əsrin 50-ci illərində yazmış olduğu "Şeirimizin şərəf və iftixarı" məqaləsində demək olar ki, Nizaminin bütün poema yaradıcılığını ümumi şəkildə təhlil süzgəcindən keçirmişdir. Lakin "Xəmsə"yə daxil olan "Xosrov və Şirin" və "Leyli və Məcnun" əsərləri ilə bağlı ayrıca olaraq 2 məqalə də qələmə almışdır. 1947-ci ildə yazılmış "Leyli və Məcnun" məqaləsi M.İbrahimovun tədqiqləri içərisində əhəmiyyətli yer tutur. Onun 1968-ci ildə qələmə aldığı "Xosrov və Şirin" məqaləsi Qulamhüseyn Beqdelinin "Nizaminin "Xosrov və Şirin" poeması və bu mövzunun Şərq ədəbiyyatında işlənməsi" adlı geniş elmi-tədqiqat əsəri ilə bağlıdır. M.İbrahimov "Xosrov və Şirin" məqaləsində Nizamini dünya renessansının ilk böyük nümayəndəsi hesab etməklə, Nizami sənətində mövcud olan insan və şəxsiyyət amilini, psixoloji aləmi, humanizm dəyərlərini yüksək qiymətləndirir. Bu məqalədə M.İbrahimovun nizamişünaslıq üçün vacib olan bir sıra məsələlərə münasibəti də gözdən yayınmır. Bildirdiyimiz kimi, bəzi Qərbşünaslıq və Şərqşünaslıq mənbələrində Nizaminin İranın Qum şəhərində olmasından, fars şairi kimi təqdimindən tutmuş, onun əsərlərinin Firdovsini, Fəxri Gürganini təqlid etdiyinə qədər yanlışlığa yer verilmişdir. M.İbrahimov bütün bunlarin hamısını təhlil edərək məsələlərə düzgün aydınlıq gətirmişdir. Dissertasiyada bütün bu problemlərin izahı öz əksini tapmışdır.

1958-ci ildə "Məhəmməd Füzuli" adlı elmi məqaləsi M.İbrahimovun böyük dühа hesab etdiyi şairin yaradıcılıq poetikasını araşdırmaq baxımından xarakterikdir. M.İbrahimov Füzuli eşqindən danışarkən düzgün olaraq qeyd edir ki, Füzulinin lirik qəhrəmanı əsl "sadiqi-eşq" sahibi kimi hicranı vüsaldan üstün tutur.

M.İbrahimovun M.Füzuli kədərinə münasibət və onun şərhində də birtərəfli mövqe tutduğunu görürük. Belə ki, tədqiqatçı bu kədərin səbəbini, əsasən, zəmanədə, ictimai mühitdə, cəmiyyətdəki sosial ədalətsizlik və faciələrdə axtarır. Belə bir mülahizə nə qədər doğru olsa da, məhduddur, birtərəflidir. Çünki bəşəri mahiyyət daşıyan Füzuli kədərinin onun şəxsi təbiəti, fitrəti, həmçinin təsəvvüflə, "vəhdəti-vücud" fəlsəfəsi ilə bağlı tərəfləri, qlobal fəlsəfi mahiyyəti də vardır. Bütün bunlar birləşərək şairin kədərini yüksək bəşəri səviyyəyə qaldırmış, insanlığın ümumi dərdinə çevirmişdir. Bu cəhəti ustalıqla sezən F.Köçərli həssas bir ədəbiyyatşünas fəhmi ilə yazırdı: "Füzuli, demək olur ki, möhnət yükünün bərkeşi olub aləmi-insaniyyətdə tamami qəmzadələrin və möhnətkeşlərin yüklərini götürmək və məzlumların halına yanmaq üçün xəlq olunmuşdur. Füzulinin ahü nalələri qarelərə dəxi sirayət edib, onları da özü ilə atəşi-hüzn və aləmə yandırır. Amma bu yanmaqda bir feyz və səadət və ülviyyət vardır ki, o atəşə yanan istər ki, bir də yansın. Bu cansuzluq pərvanənin şam başına dolanıb yanmağına bənzəyir"[1].

Akademik M.İbrahimovun 1968-ci ildə qələmə aldığı "Vaqifin dövrü və şeiri" adlı tədqiqatı adından da göründüyü kimi şairin dövrü və poeziyası ilə əlaqədar yazılmış araşdırmadır. Tədqiqatda Vaqifin dövrü vəyaradıcılığının özünəməxsusluğu vəhdət şəklində götürülür. M.P.Vaqif yaradıcılığı klassik irsə bağlansa da, ədəbiyyatımızın yeni yolu idi. Millilik, realizm, xəlqilik bu sənətin özəyini təşkil edirdi.

**"Yeni dövr Azərbaycan ədəbiyyatı problemlərinin ədəbiyyat tarixçiliyi və elmi-nəzəri istiqamətdə tədqiqi"** adlı üçüncü fəslin"**XIX əsr Azərbaycan ədəbiyyatı məsələləri milli-ictimai ədəbi mühit kontekstində"** birinci yarımfəslində isə XIX əsri əhatə edən bu mərhələnin özünəməxsus xüsusiyyətləri barədə M.İbrahimovun əhəmiyyətli fikirləri diqqəti cəlb edir.Buyarımfəsildə göstərilir ki, M.F.Axundov, N.Vəzirov, Q.Zakir, A.Bakıxanov və s. sənətkarları təhlil obyekti kimi seçən M.İbrahimov onların simasında Azərbaycan ədəbiyyatının müəyyən dövrünün bütöv mənzərəsini yaratmışdır.

[1]Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., Bakı: Elm, 1978, s. 97-98

M.İbrahimov Q.Zakiri M.P.Vaqifin tutduğu yolu davam etdirən sənətkar qismində təqdim edir. M.İbrahimov Zakir yaradıcılığında ictimai satiranın qüvvətli şəkil almasından bəhs etmişdir.Zakir satirasının tənqid hədəfləri isə Azərbaycanda müstəmləkəçilik siyasətini həyata keçirən çarizm nümayəndələri və bu işdə çar məmurlarına xidmət göstərən yerli xəyanətkarlardır.

M.İbrahimovun Azərbaycanda demokratik ideyaların güclənməsindən, ictimai münasibətlərin dəyişməsindən, Azərbaycan, rus və Avropa münasibətlərinin genişlənməsindən danışarkən ilk növbədə Abbasqulu ağa Bakıxanov yaradıcılığına üz tutması təsadüfi xarakter daşımır. Baxmayaraq ki, o, Azərbaycanda Şərq feodalizminin Qərb kapitalizminə keçid dövrünün alimi hesab olunurdu, lakin elmi və bədii yaradıcılığı ilə keçid dövrünün deyil, sonrakı mərhələnin alim və yazıçısı təsiri bağışlayırdı. O, M.F.Axundovun xidmətlərini yüksək qiymətləndirir, Azərbaycanda demokratik ideyaların, yeni ictimai fikrin, realist ədəbi cərəyanın yaranmasında onun əhəmiyyətli rol oynadığını qeyd edirdi.

M.İbrahimovun böyük mütəfəkkir-alim, yazıçı M.F.Axundovla bağlı görüşləri 1937-1938-ci illərdə yazdığı “Böyük demokrat” monoqrafiyasında və 1962-ci ildə qələmə aldığı “Xalq üçün döyünən ürək” elmi məqaləsində əksini tapır. M.İbrahimov onun yaradıcılığından danışarkən, “Kəmalüddövlə məktubları”nı siyasi pamflet adlandırır, əsərdə “monarxiya və feodalizm əleyhinə mübarizənin əsaslı proqramının” verildiyini, “Aldanmış kəvakib”də “istibdad və monarxiya quruluşunun öldürücü tənqidə”[1] məruz qaldığını qeyd edirdi. M.İbrahimov 1962-ci ildə yazdığı “Xalq üçün döyünən ürək” adlı məqaləsində M.F.Axundovla bağlı görüşlərini genişləndirərək onu materialist filosof, ateist, Azərbaycanda materialist estetikanın banisi, realist və demokratik ədəbiyyatın mühüm nəzəri qanunlarını hazırlayan şəxs kimi təqdim edir. M.İbrahimov M.F.Axundov yaradıcılığında Şərq probleminin vacib problem kimi dayandığını önə çəkir. Bu sırada üç məsələyə xüsusi toxunur: zülm, gerilik və cəhalət. M.İbrahimov görkəmli dramaturqun 1850-1855-ci illər arasında yazdığı altı komediyada ictimai zülmə, orta əsr həyat tərzinə kəskin nifrəti müxtəlif obrazlar vasitəsilə bildirdiyini qeyd edir: “Həm müəyyən ictimai ideallarla yaşayan, həm də fərdi insani xüsusiyyətləri ilə canlı, həyati olan tiplər yaratmaqda Axundovun qələmi çox qüdrətlidir. Biz Hacı Qaranı, Müsyo Jordanı, Dərviş Məstəli şahı, Lənkəran xanının vəzirini, onun

[1]İbrahimov M. Əsərləri.10 cilddə, IX c., Bakı: Yazıçı, 1982, s.31

arvadlarını yadımıza salaq. Bunlar nə qədər inandırıcı, nə qədər təbii və canlı surətlərdir.”[1]

Üçüncü fəslin **“Cəlil Məmmədquluzadə yaradıcılığı milli məfkurə və yeni tipli realist məktəbin nümunəsi kimi”** adlı ikinci yarımfəslində isə Azərbaycan ədəbiyyatı və ədəbi-ictimai fikir tarixində tamamilə yeni bir dövr hesab olunan Cəlil Məmmədquluzadə yaradıcılığının araşdırılmasından danışılır. Mirzə İbrahimov 1937-1938-ci illərdə yazmış olduğu “Böyük demokrat” əsəri ilə görkəmli yazıçı C.Məmmədquluzadəni yalnız bir yazıçı kimi tədqiq etməmiş, həm də onun milli ictimai-ədəbi mühitdəki çəkisini və bu mühitə təsirini müəyyənləşdirməyə çalışmışdır.

M.İbrahimovun “Böyük demokrat” (Bakı, 1957), “Böyük satira ustası” (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1966) monoqrafiyaları və 10 cildlik əsərlərinin 9-cu cildində yer almış 70 səhifəlik “Satira ustası” adlı məqaləsində görkəmli sənətkarın yaradıcılıq xüsusiyyətləri təhlil olunsa da, bu tədqiqatlar içərisində əsas yeri 1937-1938-ci illərdə qələmə alınmış “Böyük demokrat” tutur. Lakin M.İbrahimov “Böyük demokrat” adlı tədqiqat əsərində bir çox elmi uğurlara nail olsa da, o dövrkü ideologiyanın təsiri nəticəsində bir sıra məsələlərə obyektiv yanaşa bilməmişdir. Daha doğrusu, sovet ideologiyasının birtərəfli yanaşma metodu C.Məmmədquluzadə irsinin ictimai-milli aspektinin araşdırılmasına mane olmuşdur. Dissertasiyada biz yeri gəldikcə bu məsələlərə aydınlıq gətirmişik.

Mirzə İbrahimov “Böyük demokrat” əsərində C.Məmmədquluzadə ilə bağlı tədqiqatlarını on əsas bölmədə aparmışdır. Bu bölmələr ardıcıl olaraq C.Məmmədquluzadəyə qədərki Azərbaycan ədəbiyyatı məsələlərini, Mirzə Cəlilin yaradıcılığının ilk mərhələsini, “Əkinçi”dən “Molla Nəsrəddin”ə qədər Azərbaycan mətbuatının keçdiyi yolu, “Molla Nəsrəddin” ədəbi mərhələsini, “Molla Nəsrəddin” və “Füyuzat” üslub fərqi və qarşıdurmasını, C.Məmmədquluzadə dramaturgiyası və nəsrini, C.Məmmədquluzadənin jurnalistik fəaliyyətini və s. problemləri əhatə edir. Bölmələrin bu şəkildə düzümü və C.Məmmədquluzadə sənət və məfkurəsinin bu sistem daxilində araşdırılması onu göstərir ki, M.İbrahimov problemə düzgün yanaşmış, onun araşdırılma kordinatlarını düzgün müəyyənləşdirmişdir.

M.İbrahimovun C. Məmmədquluzadə ilə bağlı araşdırmaları təsadüfi xarakter daşımır. O, C.Məmmədquluzadəni Azərbaycan ədəbiyyatında demokratik ideyaların və yeni realizm məktəbinin layiqli nümayəndəsi hesab etdiyi M.F.Axundov və M.Ə.Sabirlə bir sırada təqdim edir.

[1] İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı. 1985, s.185

C.Məmmədquluzadənin "Azərbaycan ədəbi-ictimai və estetik fikrinin inkişafında yüksək xidmətlər göstərməsi və böyük Mirzə Fətəlinin həqiqi mənada Molla Nəsrəddinçi ədəbiyyatın sələfi və müəllimi olması"[1] fikri M.İbrahimov təhlillərinin düzgünlüyünü təsdiqləyir. Hətta "Sabirin "Fatma Tükəzbanları"nın" Novruzəli işinin" davamçıları kimi meydana çıxmasının"[2] əsasında C.Məmmədquluzadə təsirinin dayanması inkaredilməzdir.

C.Məmmədquluzadənin jurnalistik fəaliyyətində dayanan milli-ictimai mahiyyətin zənginliyinə önəm verən M.İbrahimov onu ədəbi məktəb və milli məfkurə müstəvisində tədqiq etməyi daha vacib sayırdı. M.İbrahimov tədqiqatının birinci bölümündə C.Məmmədquluzadəyə qədərki Azərbaycan ədəbiyyatı problemlərindən bəhs açır. Bu yanaşmada Azərbaycan ədəbiyyatının XII əsrdən XX əsrə qədərki dövrü əksini tapır.

C.Məmmədquluzadənin yaradıcılığının araşdırılmasına həsr edilən "Böyük demokrat" əsərində ikinci bölmə "İlk addımlar" adlanır. Burada onun yaradıcılığının birinci mərhələsi hesab olunan 1889-1905-ci illərdə yazdığı əsərlər təhlil olunmuş, dövrün ictimai-siyasi mənzərəsi öz əksini tapmışdır. M.İbrahimov C.Məmmədquluzadə yaradıcılığının birinci dövrü siyahısına daxil olan "Çay dəstgahı", "Danabaş kəndinin əhvalatları", "Danabaş kəndinin məktəbi", "Kişmiş oyunu", "Yan tütəyi", "Poçt qutusu" əsərlərini təhlil edərkən sənətkarın yaradıcılığı üçün səciyyəvi cəhətləri, fərdi-ümumi xüsusiyyətləri ənənə-novatorluq keyfiyyətləri baxımdan dəyərləndirir. M.İbrahimov tədqiqatınınüçüncü bölümü "Molla Nəsrəddin"ə qədər Azərbaycan mətbuatı" adlanır. Burada "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər Azərbaycan mətbuatının keçdiyi yol izlənilir və əsas olaraq ədəbiyyat məsələləri, demokratik və mürtəce cərəyanların mübarizəsi və s. problemlərinə yer ayrılır.

"Böyük demokrat" adlı tədqiqat əsərində C.Məmmədquluzadənin həm dramaturgiyası ("Ölülər və dəlilər aləmi"), həm də bədii nəsri ("C.Məmmədquluzadənin nəsri") müəyyən başlıqlar altında təhlil olunmuşdur. Həcm etibarilə o qədər də geniş olmayan altıncı və yeddinci bölmələrdəki bu təhlillərdə M.İbrahimov C.Məmmədquluzadəni inqilabçı-demokrat dramaturq və yazıçı, eyni zamanda yeni ədəbi mərhələnin başçısı kimi təqdim etmişdir.

---

[1]Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri (təkmilləşdirilmiş ikinci nəşri). Naxçıvan: Əcəmi, 2009, s.341

[2] Yenə orada s.347

“Ölülər və dəlilər aləmi” adlı başlıqda C.Məmmədquluzadənin konkret olaraq “Ölülər”,”Dəli yığıncağı” və “Anamın kitabı” adlı üç əsəri təhlil olunur.

C.Məmmədquluzadənin nəsri ilə bağlı təhlil “Poçt qutusu”, “Xanın təsbehi”, “Qurbanəli bəy”, “İranda hüriyyət” və “Usta Zeynal” hekayələrini əhatə edir. Bu bölümdə “Danabaş kəndinin əhvalatları” və “Quzu” əsərlərinin adları çəkilsə də bu əsərlər təhlil olunmamış, ümumi yaradıcılıq xarakteristikasında münasibət bir-iki cümlə ilə yekunlaşmışdır.

M.İbrahimov “Böyük demokrat” adlı tədqiqat əsərinin səkkizinci bölməsini C.Məmmədquluzadənin sovet dövrü yaradıcılığına həsr edir. C.Məmmədquluzadə bu hissədə sovet yazıçısı və jurnalisti kimi təqdim edilir. Burada müəyyən tərcümeyi-hal faktları, C.Məmmədquluzadənin Təbrizdəki jurnalistik fəaliyyəti, “Molla Nəsrəddin” jurnalını çap etdirməsi, 1921-ci ildə Azərbaycan Respublikası rəhbərliyinin dəvəti ilə Bakıya çağırılması və s. məsələlər epizodik şəkildə nəzərə çatdırılır.

“Böyük demokrat”ın doqquzuncu bölməsi “C.Məmmədquluzadənin yaradıcılıq xüsusiyyətləri haqqında” və onuncu bölməsi isə “Bəzi yekunlar” adlanır. Hər iki bölümdə C.Məmmədquluzadəyə məxsus o keyfiyyətlərdən danışılır ki, bu məsələlər bu və ya digər dərəcədə əvvəlki səkkiz bölümdə təhlil olunmuşdur. Ancaq həmin məsələlər bu hissələrdə təkrar yox, ümumiləşmə səciyyəsindədir. Üçüncü fəslin “**Cənubi Azərbaycan ədəbiyyatının bütöv Azərbaycan ədəbiyyatı ideyası kontekstində təhlili”** adlı üçüncü yarımfəslində Cənubi Azərbaycan ədəbiyyatı problemlərinin öyrənilməsi əsas yer tutur. Cənubi Azərbaycan ədəbiyyatının 200 illik (XIX-XX əsrlər) dövrünü əhatə edən bu tədqiqlər ayrı-ayrı sənətkarların yaradıcılıqlarını öyrənmək və bütöv ədəbiyyatımız haqqında elmi təəssüratları genişləndirmək baxımından əhəmiyyətlidir. M.İbrahimovun bu sahə ilə əlaqədar apardığı tədqiqatlar təsadüfi xarakter daşımır. Əvvəla, M.İbrahimov Cənubi Azərbaycan ədəbiyyatı istiqamətini öz elmi fəaliyyətinə daxil etməklə Azərbaycan ədəbiyyatı tarixini bütövlükdə öyrənməyə çalışmışdır. İkincisi, M.İbrahimov bütöv Azərbaycanın tərkibi olan Cənubi Azərbaycan qolunda yaranan son iki yüzillik ədəbiyyatın nümayəndələri və ümumi xarakteristikası haqqında zəngin məlumata malik idi. Onu da qeyd edək ki, Azərbaycanda “Cənubi Azərbaycan ədəbiyyatı”nın xüsusi elmi sahəyə çevrilməsi akademik M.İbrahimovun adı ilə bağlıdır. 1976-cı ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda “Cənubi Azərbaycan ədəbiyyatı” şöbəsi onun təşəbbüsü ilə yaradılmışdır. Bu şöbə yarandığı gündən elmi araşdırma mərkəzi kimi Cənubi Azərbaycanın zəngin ədəbi-mədəni tarixinin fundamental öyrənilməsində mühüm

rol oynamağa başlamışdır. 1981-1994-cü illər arasında dörd cildlik Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarının işıq üzü görməsi, çoxsaylı tədqiqat əsərlərinin çapı və s. işlər şöbənin ədəbiyyatımıza, mədəniyyətimizə və elmimizə verdiyi dəyərli töhfələrdəndir. Onun XIX və XX əsrlər Cənubi Azərbaycan ədəbiyyatının ayrı-ayrı nümayəndələri haqqında araşdırmaları həm elmi, həm də milli-mənəvi baxımdan əhəmiyyət kəsb edir. İşin əhəmiyyəti ondadır ki, M.İbrahimov bu ədəbiyyata ərazisi iki yerə parçalanan, lakin dili, ruhu, mədəniyyəti, ürəyi parçalanmayan bir xalqın ədəbiyyatı, geniş mənada isə böyük Azərbaycanın ədəbiyyatı kimi baxır. O, Əndəlib Qaracadağı, Heyran xanım, Zikri Ərdəbili, Seyid Əbülqasim Nəbati, Məhəmməd Bağır Xalxali, Hacı Mehdi Şükuhi, Əbülhəsən Raci, Mirzə Əlixan Ləli, Məhəmməd Hidəçi, Hacı Sərraf Rza, Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayi, Mirzə Ağa Təbrizi kimi yeni ruhlu şair, yazıçı və dramaturqların simasında Cənubi Azərbaycan ədəbiyyatının estetik tələbləri ödəməsini, xalqın arzu və istəklərini əks etdirməsini qeyd edir. M.İbrahimov XIX əsr Cənubi Azərbaycan ədəbiyyatından danışarkən bu ədəbiyyatın realist-demokratik ruhuna daha çox diqqət ayırırdı. Bu yolda M.F.Axundovun Cənubi Azərbaycan ədəbiyyatına təsirini xüsusi vurğulayırdı. M.İbrahimov yazır ki, Heyran xanım, Nəbati, Əndəlib Qaracadaği, Hacı Mehdi Şükuhi, Raci, Ləli, Dilsuz və s. şairlərin yaradıcılığında ənənəyə güclü sədaqət olsa da, sənətlərindəki mahiyyət dünyəvi hisslər, realist yanaşma yolu ilə çatdırılır.

O, XIX əsr Cənub nəsrinin üç böyük siması haqqında fikir söyləyir: Rüşdiyyə, Z.Marağayi və Ə.Talıbov. M.İbrahimov Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" romanını Qərb ədəbiyyatında Monteskyönün "İran məktubları", rus ədəbiyyatında Radişşevin "Peterburqdan Moskvaya səyahət" əsərləri ilə müqayisə olunan, kəskin ictimai-siyasi problemlərə toxunan bir əsər kimi qiymətləndirir, Əbdürrəhim bəy Talıbovun "Elm yüklü eşşek" alleqorik romanında isə hadisələrə ictimai-siyasi və mənəvi problemlər nöqteyi-nəzərindən dəyər verir. Ə.Talıbov yaradıcılığına məxsus digər nümunələrdə də istibdada, zülmə etiraz gücünün böyüklüyü diqqətə çatdırılır.

M.İbrahimov XX əsrin birinci yarısı Cənubi Azərbaycan şeirinin xarakteristikasını üç istiqamətdə müəyyənləşdirirdi. Bu ədəbiyyatın birinci istiqamətində azadlıq, demokratikləşdirmə, ictimai quruluşu kökündən dəyişməyə çağırış təbliğ edən yazıçılar dayanırdılar. İkinci istiqamətdə açıqdan-açığa demokratik, inqilabi fikirlər təbliğ etməyən, lakin ictimai quruluşun dözülməz olduğunu, bu quruluşun dəyişməyə möhtac olduğunu söyləyən yazıçılar dayanırdı. Üçüncü istiqamətdə dayanan sənətkarlar və

onların yazdıqları əsərlər isə "mənəvi paklığı, məhəbbəti, gözəlliyi, dostluqda sədaqəti, düzlüyü tərənnüm edən, ənənəvi lirik əsərlərdir ki, bunların içərisində köhnə təşbeh və ifadələri təkrar edənlərlə yanaşı dil, bədii obraz və üslub cəhətdən yeni ifadələr və təşbehlərlə, dərin insani hisslərlə parlayanları da az deyildir. Bu cür əsərlərdəki pak duyğular, humanizm və gözəlliyə, o cümlədən gözəl bədii sözə məhəbbət xalq kütlələrinin zövqünü tərbiyə edən, onları demokratizmə, inqilabi ideallara doğru çəkirdi." [1] Lakin M.İbrahimov mövcud şəraitdə Cənubi Azərbaycan ədəbiyyatının birinci istiqamətini əhəmiyyətli və faydalı sayırdı. M.İbrahimov cəmiyyətə qarşı etiraz motivli şeirləri təhlil edərkən ilk növbədə Mahmud Qənizadənin, Seyid Əşrəf Gilaninin, Siqqətülislamın, Şəms Kəsmainin, Xazin Təbrizinin yaradıcılığına müraciət etmiş, İran üçün xarakterik olan siyasi ab-havanın doğurduğu çətinlikləri diqqətə çatdırmışdır.

Akademik M.İbrahimovun Azərbaycanın qüdrətli şairi M.Şəhriyar barədə fikirləri elmi ictimaiyyətin diqqət mərkəzində dayanır. M.İbrahimov Azərbaycan Milli Hökumətinin 1946-cı ildə süqutundan sonra Şimali Azərbaycana mühacirət etmiş Əli Tudə, Balaş Azəroğlu, Söhrab Tahir, Mədinə Gülgün, Hökumə Bülluri, Əbülfəz Hüseyni və digər şairləri də Cənubi Azərbaycan ədəbiyyatının nümayəndələri kimi dəyərləndirmiş və onların yalnız bir neçəsi haqqında məqalə yazmışdır.

Üçüncü fəslin **"Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərində müasir Azərbaycan ədəbiyyatı məsələləri"** adlı dördüncü yarımfəslində göstərilir ki, "Azərbaycan ədəbiyyatında yeni intibah dövrünün başlanğıcı hesab olunan iyirminci əsrin" [2] ədəbi-bədii problemləri M.İbrahimovun ədəbiyyatşünaslıq görüşlərində əhəmiyyətli yer tutur. O, XX əsr ədəbiyyatına ənənəvi dövrləşmənin (XIX əsrin 90-cı və XX əsrin 20-ci illəri) tələbləri daxilində deyil, yeni dövr ədəbiyyatı tələbləri daxilində daha geniş dairədə münasibət bildirmişdir. Çünki bir ədəbiyyatşünas alim olaraq o, dövrlər arasındakı əlaqəni ədəbi ənənələrin əlaqəsi ilə bağlayırdı. Nəriman Nərimanov, A.Şaiq, C.Cabbarlı, ƏliNəzmi, H.Cavid, S.Vurğun, R.Rza, M.S.Ordubadi, S.Rəhimov, M.Hüseyn, M.Cəlal, İ.Şıxlı və digər sənətkarların bədii yaradıcılığı ənənə və novatorluq, dil-üslub, forma-məzmun və bir sıra bədii-psixoloji məqamlar baxımından onun diqqətini cəlb etmişdir.

[1] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası , 4 cilddə, II c., Bakı: Elm, 1983, s.21
[2] Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı . Bakı: Maarif, 1982, s.11

M.İbrahimovun bədii yaradıcılıq nümunələrini təhlil edərkən ədəbi ənənə əlaqəsinə üstünlük verməsi onu düzgün nəticələrə aparır. Məsələn, tarixi qəhrəmanlıq mövzusunda yazılmış Hüseyn İbrahimovun "Günəş doğan yerdə", Cəlal Bərgüşadın "Boz atın belində", Firudin Ağayevin "İldırım dənizə çıxır", Məlik Mikayılzadənin "Nina üçün gül dəstəsi" adlı roman və povestlərindən danışarkən M.İbrahimov onların müxtəlif məziyyətləri sırasında tarixilik prinsipləri ənənəsindən bəhrələnməni də xüsusi qeyd edir. M.İbrahimov bu qənaətdədir ki, adları qeyd olunan həmin əsərlər M.S.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Dünya qopur", S.Rəhimovun "Şamo", Mehdi Hüseynin "Səhər", M.Cəlalın "Bir gəncin manifesti" kimi romanlarının yaxşı ənənəsini davam etdirir. İlyas Əfəndiyev dramaturgiyasına gəldikdə isə M.İbrahimov lirik-psixoloji janrın inkişafındakı töhfələrinə görə onun yaradıcılığını daha çox təqdir edir. Lakin "Mahnı dağlarda qaldı" dramında tarixiliyin qabardırılmasını M.İbrahimov lirik-psixoloji dramdakı situasiyalar qədər vacib sayır. M.İbrahimov istər nəsrdə, istərsə də dramaturgiyada tarixilik prinsipindən danışarkən bədiilik və tarixilik müqayisəsində üstünlüyün bədiiliyə verilməsini daha məqbul hesab edirdi.

O, İ.Əfəndiyev, Balaş Azəroğlu, B.Bayramov, N.Xəzri, B.Vahabzadə, C.Novruz, N.Həsənzadə, İ.İsmayılzadə, F.Qoca, Anar, Elçin, H.Abbaszadə, C.Əlibəyov, S.Səxavət, S.Azəri, S.Rüstəmxanlı və s. yazıçı və şairlərin sənətlərindəki mükəmməlliyi və yüksək bədiilik imkanlarını müasir ədəbiyyatımızın uğuru kimi qiymətləndirir.

M.İbrahimov "Sənət və sənətkarlıq", "Sənətin qüdrəti", "Yaradıcılığın həyatla əlaqəsi", "Dramaturgiya, konflikt, gözəllik", "Ayrılan yollar" romanı", "Novatorluq və xəlqilik", "Ənənəyə həssas münasibət", "Komediya, həyat, əxlaq" və bu kimi onlarla nəzəri-estetik xarakterli əsərlərində sənətin bir sıra mühüm cəhətləri barədə fikirlərini ortaya qoymuş, yüksək elmi səviyyəli mühakimələr yürütmüşdür. Onun elə məqalələri vardır ki, burada konkret olaraq bir sənətkarın yaradıcılığı təhlil olunur. Bu sırada Nəriman Nərimanova ("Sözün gücü" (1975), "Məhəbbət və insaniyyət" (1963), Abdulla Şaiqə ("Sönməz günəşdir doğan" (1981), Əli Nəzmiyə ("Satira və Əli Nəzminin satirik şeirləri" (1979), H.Cavidə ("Cavidi yad edərkən" (1982), S.Vurğuna ("Bir əbədi sənəti var" (1976), "Böyük xalq şairi" (1976), "Yadıma düşdü" (1976), C.Cabbarlıya ("C.Cabbarlının sənəti və sənətkarlığı" (1979), R.Rzaya ("Odlu sətirlər" (1960), "İşıqlı və hərarətli" (1970), M.Hüseynə ("Yazıçının yolu" (1962) həsr edilmiş məqalələrdə hər bir sənətkarın fərdi yaradıcılığı təhlil edilir,

ədəbiyyatşünaslıq tələbləri daxilində sənətlərinin özünəməxsus cəhətləri izah olunur.

Məsələn, o, Abdulla Şaiqi tədqiq edərkən ("Sönməz günəşdir doğan" (1981) yaradıcılığındakı mütərəqqi ictimai ideal amilinə xüsusi diqqət yetirir, yeni ruhlu romantik ədəbiyyatın yaranmasında onun xidmətlərini yüksək qiymətləndirir. M.İbrahimovun 1982-ci ildə qələmə aldığı "Cavidi yad edərkən" məqaləsinin isə cəmi 6 səhifədən əbarət olmasına baxmayaraq, müəllif burada Cavidlə əlaqədar olan bir sıra yaradıcılıq xüsusiyyətlərinə toxuna bilib. M.İbrahimovun 1962-ci ildə Mehdi Hüseynlə bağlı yazdığı məqalə ("Yazıçının yolu") həm həcminə, həm də toxunulan məsələlərin çoxluğuna görə fərqlənir. Bu da səbəbsiz deyildir. M.Hüseyn böyük yazıçı-dramaturq olmaqla yanaşı, həm də görkəmli ədəbiyyatşünas alim və ədəbi-tənqidlə ardıcıl məşğul olan tanınmış tənqidçi idi.

M.İbrahimov təhlil prosesində M.Hüseynə məxsus yeniliklərdən, M.Hüseynin yeni insan axtarışlarından bəhs açarkən onun "Alov" pyesinə müraciət etməsini tam dürüst seçim kimi dəyərləndirir. Əsərin yazıldığı tarixə nəzər salsaq (1961) bu illərdə "60-cılar" ədəbi nəslinin ədəbiyyata yeni ab-hava gətirdiklərinin şahidi oluruq. Müstəntiq Fərhad Kamalovun simasında M.Hüseyn ədəbiyyata yeni xarakter gətirmiş, zamanla həqiqət arasında görünən fərqləri onun simasında canlandıra bilmişdir.Bütünlükdə bu yarımfəsildəM.İbrahimovun ədəbi-tənqidi görüşlərində yer alan müasir Azərbaycan ədəbiyyatı məsələləri təhlil obyektinə çevrilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat nəticəsində əldə edilmiş qənaətlər ümumiləşdirilmişdir:

- Akademik M.İbrahimovun ədəbiyyatşünaslıq fəaliyyəti Azərbaycan, rus, Avropa, Şərq ədəbiyyat tarixlərini və sənətin nəzəri-estetik problemlərini əhatə edir.

- M.İbrahimovun Azərbaycan folkloru ilə bağlı görüşlərində, başlıca olaraq qəhrəmanlıq dastanlarımız milli özünəməxsusluq, aşıq sənəti milli düşüncə, milli varlıq və milli-tarixi kökə bağlılıq kontekstində, aşıq poeziyasında realizm isə bədii yollarla təkmilləşmə xüsusiyyətləri daxilində öyrənilmişdir.

- Onun klassik ədəbiyyatla bağlı tədqiqləri iki əsas istiqamətdə diqqəti cəlb edir. M.İbrahimov (Xaqani, Nizami, Nəsimi, Əvhədi, Füzuli, Vaqif və s. sənətkarların yaradıcılıqları əsasında) birinci istiqamətdə klassik ədəbiyyatı ədəbiyyat tarixçiliyi, ikinci istiqamətdə isə sırf nəzəri-estetik metod və üslub xüsusiyyətlərinə görə təhlil edir.Akademik M.İbrahimov

realizmin orta əsrlər Azərbaycan ədəbiyyatının yaradıcılıq metodu olduğunu ilk dəfə ortaya atmışdır.

- XIX-XX əsrlər, o cümlədən müasir və ən yeni dövr ədəbiyyatlarının əhatə olunduğu Yeni dövr Azərbaycan ədəbiyyatı mərhələsində isə M.İbrahimov M.F.Axundov, A.Bakıxanov, Q.Zakir, N.Vəzirov və digər sənətkarların ədəbi fəaliyyətlərində yaranan yeni istiqamət və yeni məzmun keyfiyyətlərinin kökünü cəmiyyətdəki sosial yeniləşmə prosesləri ilə bağlamış və Cəlil Məmmədquluzadə yaradıcılığına məxsus milli-estetik xüsusiyyətlərdən bəhs etmişdir.
- M.İbrahimov Cənubi Azərbaycan ədəbiyyatı materiallarını araşdırarkən onu bütöv Azərbaycan ədəbiyyatı, Azərbaycançılıq ədəbi-bədii estetikası kontekstində təhlil etmişdir.
- Azərbaycanda yazıçı-alim və ictimai xadim olaraq ilk dəfə Azərbaycan dilinin dövlət dili elan olunması təşəbbüsündə çıxış etmişdir.

**Dissertasiyanın əsas məzmunu ilə bağlı müəllifin aşağıdakı məqalə və tezisləri çap olunmuşdur.**

1. Mirzə İbrahimov və klassik ədəbi irs // Pedaqoji Universitet xəbərləri. ADPU, Bakı:2015, №1 s. 341-345
2. "Kitabi-Dədə Qorqud" M.İbrahimovun ədəbi-nəzəri görüşlərində / "Kitabi-Dədə Qorqud" və dünya eposçuluq ənənəsi" Beynəlxalq elmi konfransının materialları, Sumqayıt Dövlət Universiteti.16-17 dekabr 2015. Sumqayıt: 2015s.110-111
3. Mirzə İbrahimovun nəzəri-estetik görüşlərində metod və təriqət məsələləri // Filologiya məsələləri, Bakı: 2015, №10, s.503-509
4. Mirzə İbrahimovun folklor dili haqqında görüşləri //AMEA Folklor İnstitutu Dədə Qorqud.Elmi-ədəbi toplu. Bakı: 2015, №3, s. 115-121
5. Анализ творчества М.Физули и М.П. Вагифа в литературно-критических суждениях Мирзы Ибрагимова // Научно-методического журнала «Гадаад хэл заахаргазуйн асуудал» (Вопросы преподования иностранных языков), Монголии, Улан-Батор: 2015, №45, с.124-128
6. Mirzə İbrahimovun ədəbi-nəzəri görüşlərində Xaqani yaradıcılığının tədqiqi məsələləri / Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinin 4 iyun 2015-ci ildə xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinə həsr edilmiş ümumrespublika konfransının materialları. Risalə araşdırmalar toplusu, Bakı: 2015, №11, s.223-224

7. Mirzə İbrahimov və türk qəhrəmanlıq dastanları / IV uluslararası türk sanatları, tarihi ve folkloru kongresi sanat etkinlikleri, Konya-Türkiyə.Konya: 2016, s.478-482
8. Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərində müasir Azərbaycan ədəbiyyatı məsələləri // Turan Stratejik Araştırmalar Merkezi, Kars Kafkaz Universitesi, Kars: 2016, cilt 8, №29, s.118-123
9. Mirzə İbrahimovun elmi-nəzəri görüşlərində Cənubi Azərbaycan ədəbiyyatı məsələləri //AMEA-nın Naxçıvan bölməsi, İncəsənət, Dil, Ədəbiyyat İnstitutu, Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətkarlıq və tarix), Elmi toplu, Naxçıvan: 2016, cild 6, №1, s. 75-82
10. Böyük demokrat: milli məfkurə və realizm // "Azərbaycan" jurnalı. Bakı: 2016, №5, s.183-188
11. Mirzə İbrahimovun elmi araşdırmalarında Cəlil Məmmədquluzadə yaradıcılığı milli məfkurə və yeni tipli realist məktəbin nümunəsi kimi / I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" adlı Beynəlxalq konfransın materialları (II hissə), Bakı, 14-15 noyabr 2016. Bakı: 2016. s. 438-449
12. Mirzə İbrahimov və aşıq yaradıcılığı // Qafqaz Universitetinin jurnalı, Bakı: 2016, №1, s. 31-44
13. Проблемы классической поэзии в литературно-критических суждениях Мирзы Ибрагимова // Науковые записки. Национальный Педагогический Университет имени М.П.Драгоманова., Украина, Киев:2016. Выпуск CXI, 116, с.10-16
14. Muhammed Hüseyin Şehriyar "Heyderbaba" şairi gibi (Akademisyen Mirza İbrahimovun araşdırmalarında) / Her yıl bir büyük türk bilgi şölenleri: 3, Uluslararası Muhammed Hüseyin Şehriyar bilgi şöleni, Türkiye-Bursa, 7-8 kasım 2016. Bursa: 2016, Türk Ocakları Bursa Şubesi Yayınları. №10, s.333-336
15. Mirze İbrahimovun XIX asr Azerbaycan edebiyatının problemlerine dair edebi ve teorik görüşleri // Filologiya məsələləri, Bakı: 2017, №2, s. 339-348
16. Проблемы классической поэзии в литературно-критических суждениях Мирзы Ибрагимова // Язык и культура, Киев : 2017 Выпуск 19, Том IV(184), с.195-203

**Бахшиева Улькер Эльман кызы**

## Мирза Ибрагимов и проблемы азербайджанской литературы

### Резюме

В представленной диссертации изучаются научно-теоретические взгляды народного писателя, академика Мирзы Ибрагимова, сыгравшего значительную роль в исследовании вопросов фольклора, классической и современной азербайджанской литературы. Основная цель резюмируемой диссертации состоит в том, что, исследуя проблемы азербайджанского национального литературоведения, изучать и систематизировать взгляды акад. М.Ибрагимова в контексте современной науки.

Диссертация состоит из введения, трех глав, выводов и списка использованной литературы. Во «Введении» представлена актуальность темы, объект и предмет исследования, цели и задачи, методологические основы, научная новизна, теоретическая и практическая значимость, структура работы.

В первой главе «Фольклористические взгляды М.Ибрагимова», состоящей из трех параграфов, изучаются воззрения ученого относительно фольклора, героических дастанов, ашугского творчества, ашугского искусства, фольклорного языка, анализируемые в общем контексте проблематики.

Во второй главе «М. Ибрагимов и классическая азербайджанская литература» изучены вопросы, связанные с классической азербайджанской литературой, теоретико-эстетические взгляды ученого относительно метода, а также, тематика, идея, форма и проблематика классической литературы.

В третьей главе «Исследование проблем нового периода азербайджанской литературы в направлении литературного историзма и научно-теоретическом аспекте», состоящей из четырех параграфов, изучаются литературно-критические взгляды М.Ибрагимова в контексте национально-общественной среды азербайджанской литературы XIX в., творчество Джалила Мамедкулизаде в контексте национальной идеологии и как образец нового типа реалистической школы, южно-азербайджанская литература в идейном кругу целостной азербайджанской литературы, а также взгляды Мирзы Ибрагимова в контексте общих проблем азербайджанской литературы.

В части «Заключение» суммируются и обобщаются литературно-теоретические взгляды акад. М. Ибрагимова относительно основополагающих вопросов азербайджанской литературы.

**Bakhshiyeva Ulker Elman gizi**

## Mirza Ibrahimov and problems of Azerbaijani literature

### Summary

Academician Mirza Ibrahimov's greate role in the development of contemporary Azerbaijan literature and literary-critic thought whose scientific-theoretical views about folklore, classic and contemporary Azerbaijan literature are investigated in this dissertation. The main aim of the research is to systematize Mirza Ibrahimov's scientific researches about Azerbaijan literary problems in the contexst of national Azerbaijan literary demands. Dissertation consists of an introduction 3 chapters, conclusion and the list of used literature. Introduction substantiates the choice and urgency of the theme, determines the aim and objectives, methods of investigation, comprises its scientic novelty, theoretical and practical significance as well as the hypothesis of the research and specifies the structure of the thesis.

The first chapter titled "M.Ibrahimov's folklore researches" is divided into 3 subchapters. M.Ibrahimov's foklore investigations and heroic tales, M.Ibrahimov and ashuq creativity, M.Ibrahimov and ashuq art, M.Ibrahimov and folklore language problems are analyzed in this chapter. In the second chapter entitled "M.Ibrahimov and classic Azerbaijan literature" M.Ibrahimov's researches concerning classical Azerbaijan literature are investigated. Theoretical-esthetic researches, methods and religious problems, including theme, idea and form features of classic literature investigated by M.Ibrahimov are analysed here too. The third chapter is called "Literary history of the new Azerbaijan literature problems and their research in scientific-theoretical way". This chapter is divided into 4 subchapters. Academician M.Ibrahimov's literary-critical researches of the XIX century Azerbaijan literature in socio-national literary contexst, J.Mammagquluzade's creativity as manifestation of national thought and the new realist school representative, the place of South Azerbaijan literature in the Azerbaijan literature in whole, the XX century and the new approach to Azerbaijan problems and others are the investigated and the attitudes from today's demands are expressed in these subchapters. The conclusion summarires the basic results of academician M.Ibrahimov's researches of Azerbaijan literature from critical point of view.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**УЛЬКЕР ЭЛЬМАН кызы БАХШИЕВА**

# МИРЗА ИБРАГИМОВ И ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**БАКУ –2017**